"Xocalı soyqırımı beynəlxalq cinayətdir"

Xocalı soyqırımından 33 il ötdü. Bu illər ərzində ermənilərin Azərbaycan xalqına törətdiyi soyqırım aktının dünya ictimaiyyətinə tanıdılması istiqamətində bir çox işlər görülüb.

Görülən işlərin nəticəsi olaraq Xocalı soyqırımı bir çox ölkələrdə qəbul olunan parlament aktlarında tanınıb. Bu vaxtadək, Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları, həmçinin ABŞ-nın 20-dən çox ştatı tərəfindən müvafiq parlament qətnamələri qəbul edilib.

Eyni zamanda 20 noyabr 2012-ci il tarixində Cibutidə keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında Xocalıda törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qətnamə qəbul olunub.

2013-cü ilin fevral ayında Qahirədə keçirilən İƏT İslam Zirvə Konfransının 12-ci sessiyasında qəbul olunan Yekun Kommünikedə üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində zəruri səylər göstərməyə çağırış edilib.

Mövzu ilə bağlı "Cebheinfo.az"-a danışan deputat Bəhruz Məhərrəmov deyib ki, artıq 33-cü ildir ki, dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutulması, 106 qadın, 63 uşaq, 70 qoca olmaqla 613 şəxs məhz azərbaycanlı olduğuna görə xüsusi qəddarlıqla qətlə yetirilməsində ehtiva olunan Xocalı faciəsini yad edirik:

"Ümumiyyətlə, Xocalı faciəsi bir xalqın məsələsi deyil, 613 insanın vəhşiliklə qətlə yetirilməsi bəşəri faciədir. Soyqırım əlamətləri ilə yanaşı, sülh və insanlıq əleyhinə cinayətlərin məcmusunun törədildiyi bu faciə XX əsrin sonunda, insan haqlarının beynəlxalq hüququn prioritetinə çevrildiyi bir dövrdə, hər kəsin gözü önündə baş versə də, müasir audiovizual vasitələrlə sənədləşsə və təkziblər sübutlarla təsdiqlənsə də, hələ də əsl beynəlxalq hüquqi qiymətini almadığı üçün bəşəriyyət adına utanc olaraq qalmaqdadır.

Hansısa konkret şəxsin törətdiyi və cinayət tərkibinin mövcudluğu şübhə doğurmayan əməli siyasi məhbus şousuna çevirən, yaxud bizimlə Qarabağın "məzlum ermənilərinin" haqlarının davasını aparan beynəlxalq hüquq-müdafiə təşkilatları və qlobal subyektlər 33 ildir bu qətliama reaksiya vermir.

Cinayətin iştirakçıları bəllidir və bu soyqırımın törədilməsinə görə Ermənistanın ozamanki siyasi-hərbi rəhbərliyi birbaşa məsuliyyət daşıyır. Təəssüflər olsun ki, cinayətin təhrikçi, təşkilatçı və icraçılarından biri olan Serj Sarkisyanın Avropa mediasına şəxsi etirafına baxmayaraq hüququn aliliyindən danışanlar onun və Sarkisyanın digər cinayət ortağı Robert Köçəryanın vəhşiliyinə hələ də hərəkətsizlik göstərməklə Xocalı faciəsini hələ tanımayan özünü "beynəlxalq ictimaiyyət adlandıran" bəzi böyük dövlətlər bu cinayətin ortağı olaraq qalırlar".

Deputat qeyd edib ki, humanitar hüquq Haaqa və Cenevrə hüququ adlanan iki bölmədən ibarətdir:

"Haaqa hüququ, başqa cür adlandırsaq "müharibə hüququ", daha çox texniki-taktiki xarakter daşıyır, əməliyyatlar zamanı tərəflərin hüquq və vəzifələrini müəyyən edir. Buraya yersiz insan tələfatına, əsassız dağınıntılara, döyüşçülərin yersiz iztirablarına yol vermə mək vəzifələri daxildir.

Cenevrə hüququ isə silahlı münaqişələr zamanı insan hüquqlarının qorunması məsələlərini tənzimləyir. Buraya silahlı qüvvələrdə yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması, hərbi əsirlərlə rəftar, mülki şəxslərin qorunması və s. tədbirlər daxildir.

Xocalı faciəsi öz xarakterinə görə elə müstəsna beynəlxalq cinayət hadisəsidir ki, humanitar hüququn hər iki qolu üzrə ciddi pozuntulara səbəb olmaqla beynəlxalq cinayətlərin mürəkkəb məcmusunu yaratmışdır.

Müqayisə üçün nəzərinizə çatdırım ki, beynəlxalq hüquq ümumtanınmış Holokost soyqırımını humanitar hüququn yalnız bir qolu - Cenevrə hüququnun pozuntusu kimi qəbul edərək, soyqırım cinayəti kimi rəsmiləşmişdir. Bu amil bir daha Xocalı faciəsinin nə dərəcədə dəhşətli insanlıq faciəsi və beynəlxalq hüquq üçün zərbə olduğunu əyani və elmi əsaslarla nümayiş etdirir.

"Beynəlxalq hüquq üçün zərbə" ifadəsini təsadüfən işlətmirik. Xocalı soyqırımını dəhşətlərə görə unikal fakt kimi tarixdə saxlayacaq amillərdən biri də beynəlxalq hüququn 10 prinsipindən 6-sının eyni zamanda pozulması faktidir. (Buraya 1, 2, 8, 9, 10-cu prinsiplərin, "Güc tətbiq etməmək və güc tətbiq etməklə hədələməmək"; "Münaqişələrin dinc yolla həlli"; "Sərhədlərin toxunulmazlığı"; "Dövlətlərin ərazi bütövlüyü"; "Əsas insan hüquq və azadlıqlarına hörmət") Nəzərə almaq lazımdır ki, hətta məşhur Nürnberq prosesi, Yuqoslaviya və Ruanda işləri üzrə ittiham aktlarında ən çoxu beynəlxalq hüququn cəmi 5 pozuntusunu müşahidə etmək mümkündür. Bu isə o deməkdir ki, Xocalı faciəsi beynəlxalq hüququn stabil və davamlılıq xarakterini puçə çıxarmış oldu".

B. Məhərrəmov bir neçə il öncə Ermənistanın o zamanki prezidenti Xocalı faciəsinə dair videomüsahibəsindən xatırlatma edib:

""Mən heç bir təəssüf keçirmirəm... hətta minlərlə əhali öləsə, bu cür sərt gedişlər zəruridir". Bu, Ermənistan tərəfin faktı ən yüksək səviyyədə etirafı və bütün qeyri-insani davranışlara haqq qazandırması kimi dəyərləndirilməlidir.

Məhz bu məqamda qeyd etmək yerinə düşər ki, Cenevrə hüququnun əsaslandığı 4 Cenevrə Konvensiyanın hər birində işgəncə və insan ləyaqətini alçaldan rəftar istisnasız və qeyd-şərtsiz olaraq qadağan olunmuşdur.

Bu cür qeyri-insani metodlara əl atılmasına, ən ali və ümdə dəyərlər olan "azadlıq" və ya "milləti müqəddəratı" məsələləri də daxil olmaqla, heç bir hal və vəziyyətə haqq qazandıra bilməz. İstənilən halda əgər belə bir fakt varsa, bu artıq Cenevrə Konvensiyalarının pozulması hesab edilməli və hərbi cinayət kimi cəzalandırılmalıdır.

Lakin maraqlısı odur ki, Ermənistan tərəfi ən yüksək səviyyədə, prezidentin şəxsində qətliam faktını etiraf etsə də, dünyada 200 dövlətdən cəmi 3 dövlət tam səviyyədə, 9 dövlət parlament səviyyəsində və ABŞ-nın 21 ştatı Xocalını soyqırım kimi tanıyır.

Bu gün dünyada sülhün və stabilliyin qarantı hesab edilən BMT müharibə və hərbi əməliyyatların aparılmasına dair 4 qızıl qayda müəyyən etmişdir. Təşkilatın bu mövzuda qəbul etdiyi bütün beynəlxalq sənədlərin məzmunu bu 4 qaydanın tələblərinə cavab verməlidir. Yəni həmin sənədlərin ekspertizası həyata keçirilərkən hüquqi ekspertizanın ilk şərti kimi məhz bu 4 qayda götürülür. Həmin qaydaları dünyanın müxtəlif ölkələrindən olan KİV nümayəndələrinin elə Ermənistanın özündə apardığı araşdırmalarda yer alan faktlarla paralel formada təhlil etdikcə situasiyanı daha aydın formada dərk etmək olur.

1-ci qayda: Müharibə qurbanları ilə bütün hallarda heç bir ayrı-seçkilik qoyulmadan və irqi, milli, dini mənsubiyyətindən asılı olmadan humanist rəftar edilməli, onlar müdafiə olunmalıdırlar. Ermənisi milli ideoloqu, yazıçı Zori Balayanın "Ruhumuzun dirçəlişi" adlı kitabından çıxarış: "Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir ermənini kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir ermənı hərəkətlərimizlə fəxr duyacaq".

Göründüyü kimi, cinayətkar qəsd məhz türk tandemini hədəfləyib. Bu mövqe ilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi də qismən razılaşmışdır. "Çıraqov və digərləri Ermənistana qarşı" qərarında da ayrı-seçkilik faktı etiraf edilsə də, ayrıca hal kimi götürülməmişdir.

2-ci qayda: Qəsdən adam öldürmə, işgəncə, əzab vermə, qeyri-insani və insan ləyaqətini alçaldan rəftar, bioloji təcrübə və şikəstetmələr qadağandır.

Yenə də Balayanın "Ruhumuzun dirçəlişi" adlı kitabından çıxarış:

"Biz Xaçatırla Xocalıda ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar". Hesab edirik ki, burada əlavə şərhə ehtiyac yoxdur.

3-cü qayda: Lüzumsuz dağıntılar və terror qadağandır. Dövlət Statistika Komitəsinin məlumatından çıxarış: "Xocalı rayonunun işğalı nəticəsində 1 şəhər, 1 qəsəbə, 49 kənd yerlə-yeksan edilmiş, dövlətin və əhalinin əmlakına 01.04.1992-ci il tarixinə olan qiymətlərlə 5 milyard rubl dəyərində ziyan vurulmuşdur".

4-cü qayda: Müharibə qurbanlarının himayəsinə dair normaları ciddi şəkildə pozan təqsirkar şəxslər cinayət cəzasına məhkum edilməli olan hərbi cinayətkarlardır. Yazıçı-jurnalist David Xerdiyan "Xaç uğrunda" kitabında yazır:

"Şəhərin soyuğunda biz Daşbulaq yaxınlığındakı bataqlıqdan keçmək üçün ölülərdən körpü düzəltməli olduq. Mən ölülərin üstünə getmək istəmədim. Bunu görən podpolkovnik Ohanyan mənə işarə etdi ki, qorxmayın.

Mən ayağımı 9-11 yaşlı qız meyidinin sinəsinə basıb addımlamağa başladım".

Göründüyü kimi, bu gün Ermənistanda hakim hərbi-siyasi elitanı təşkil edən Sarkisyan, Ohanyan kimi şəxslərin bu cinayətlərdə birbaşa rola malik olması artıq ermənilərin özləri tərəfindən etiraf edilmiş, sübuta ehtiyacı olmayan faktdır".

Bəhruz Məhərrəmov xatırladıb ki, Azərbaycan Respublikası 31 may 1996-cı il tarixli Qanunla 1948-ci il tarixli "Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" BMT Konvensiyasına qoşulmuş, müstəqilik illərində qəbul edilən Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsinin "Sülh və insanlıq əleyhinə olan cinayətlər"ə görə məsuliyyət nəzərdə tutan VII bölməsinin "Sülh və insanlıq əleyhinə olan cinayətlər" adlanan VI fəslinin 103-cü maddəsi "Soyqırım"a, 104-cü maddəsi "Soyqırımının törədilməsinə təhrik etmə"yə görə cinayət məsuliyyəti nəzərdə tutmuşdur:

"Sonradan qəbul edilsə də, milli qanunvericilik Xocalı cinayətlərinə görə təqsirkarların cəzalandırılmasına imkan verir. Belə ki, sülh və insanlıq əleyhinə olan cinayətlərə, soyqırıma və müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan Qanunun qüvvəsinin geriyə şamil olunması haqqında 5 dekabr 2006-cı il tarixli Konstitusiya qanunu bunu tamamilə mümkün hesab edir.

Yəni beynəlxalq hüququn üstünlüyünü qəbul edən Azərbaycan Respublikasında, törədildiyi zaman cinayət sayılan əməlin milli hüquq sistemində retroaktiv tətbiq edilməsi tamamilə qanunidir. Bundan başqa, Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunun 5-ci, 6-cı maddələrinə əsasən bu məhkəmə genosid cinayətlərini icraata qəbul etmək və mahiyyəti üzrə ona baxmaq səlahiyyətinə malikdir.

Lakin Roma statutunun 11-ci maddəsinə əsasən məhkəmə yalnız statut qüvvəyə mindiyi tarixdən sonra, yəni 17 iyul 1998-ci ildən sonra törədilmiş cinayətlərə münasibətdə müvafiq yurisdiksiyaya malikdir.

Həm də Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunun 5-ci maddəsinin tələbinə əsasən, Haaqa tribunalında məsələyə o vaxt baxıla bilər ki, həmin cinayətlər Roma statutunu ratifikasiya etmiş dövlətin ərazisində və Roma statutunu ratifikasiya etmiş dövlətin vətəndaşı tərəfindən törədilmiş olsun.

Bu hüquqi əsaslar və şərtlər hazırda mövcud olmadığına görə Xocalı soyqırımını törədənlərin cinayət işinə Haaqa tribunalında baxılması mümkünsüzdür.

Lakin beynəlxalq təcrübəyə əsasən məsələnin başqa bir hüquqi həlli, Azərbaycanın səlahiyyətli orqanlarının vəsatətləri əsasında ad hoc qaydasında xüsusi səlahiyyətli Beynəlxalq Cinayət Məhkəməsinin, yaxud Hərbi Tribunalının yaradılması mümkündür. Bunun üçün Birləşmiş Millətlər Təşkilatı qarşısında məsələ qaldırması zəruridir. Bu barədə Ruanda, Yuqoslaviya işləri üzrə müvafiq təcrübə də vardır və Xo-

Deputat: *"Xocalı faciəsi öz xarakterinə görə elə müstəsna beynəlxalq cinayət hadisəsidir ki..."*

calı cinayəti beynəlxalq qurumlar vasitəsilə mühakimə edilə bilər. Burada isə hüquq-müdafiə orqanlarının, xüsusən də məhkəmə hakimiyyətinin beynəlxalq əməkdaşlığının səviyyəsindən çox şey asılıdır.

Əlbəttə, Azərbaycan beynəlxalq ədalətsiz yanaşmaya dözümlə yanaşmaq niyyətində deyil. Məlumdur ki, Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün dövlət səviyyəsində işlər başladı. Cənab İlham Əliyevin çox ciddi səyləri, Mehriban Əliyevanın Heydər Əliyev Fondu, habelə UNESCO və İCESCO xətti ilə çoxşaxəli təbliğat işi, xüsusən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın 17 ildir ki, başlanan "Xocalıya ədalət" beynəlxalq kampaniyası nəticəsində hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilməsi istiqamətində ciddi nəticələr əldə edilmişdir.

Təbii ki, biz o qənaətdəyik ki, düşmənçilik daimi ola bilməz, lakin, təəssüf ki, Ermənistan xislətini dəyişmir. Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması, bu gün isə Ermənistanın hələ də minalanmış ərazilərin xəritələrini gizlətməsi, elə bu çərçivədə ötən həftə Xocalıda daha bir mina partlayışı bir daha sübut etdi ki, zaman keçsə də, mülki əhaliyə qarşı cinayətlər Ermənistanın daimi dövlət siyasəti olaraq qalıb".

Həmsöhbətimiz əlavə edib ki, Azərbaycan xalqı bu vəziyyətlə barışa bilməzdi:

"Nəticə etibarilə, Prezident İlham Əliyevin "Xocalı soyqırımının otuzuncu ildönümü haqqında" Sərəncamının məzmununda da ifadə edildiyi kimi, 44 günlük savaşdakı zəfərlə Azərbaycan xalqı əzəli torpaqlarını işğaldan qurtararaq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməklə bərabər, həm də çoxsaylı faciələrin, o cümlədən Xocalı soyqırımı qurbanlarının qisasını almaqla tarixi ədaləti bərpa etmiş oldu.

Xocalının tam qisası isə antiterror tədbirləri ilə Ermənistanın ikinci dəfə kapitulyasiyaya məcbur edilməsi və 2023-cü ilin 15 oktyabr tarixində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Xocalıda və Xankəndidə dövlət bayrağımızı ucalması oldu. Möhtərəm Prezidentin 10 yanvar 2024-cü il tarixli müsahibəsində də ifadə etdiyi kimi, "Xocalıda bayrağımızın ucaldılması ilə tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qisası alındı. Xankəndidə bayrağın qaldırılması isə ədalətin bərpası oldu".

Prezident İlham Əliyevin Xocalının Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanışlığı zamanı kəndə köçən bir qrup sakinlə görüşərkən dediyi kimi, Xocalını azad etmək hər zaman gündəlikdə duran məsələ idi:

"İkinci Qarabağ müharibəsi 2020-ci il noyabrın 10-da dayanandan sonra yenə də bütün köçkünlər bilirdilər ki, Xocalı azad olunmayana qədər biz işimizi bitmiş hesab etməyəcəyik. Nəmli Xocalı, Xankəndi də, Ağdərə, Xocavənd və Əsgəran rayonları da işğalçılardan tam azad edildi. Yüzlərlə kənd artıq öz sahiblərini gözləyir".

Qürurverici haldır ki, faciədən 33 il sonra, biz artıq Xocalıya Böyük Qayıdışın reallaşdırılmasına şahidlik etməkdəyik, cənab İlham Əliyev xocalıluların öz doğma yurduna qaytarılması istiqamətində qətiyyəti ilə 33 ildir qan ağlayan Xocalıda ədaləti, haqqı bərpa etməkdədir.

Bu gün artıq Xocalıda quruculuq-bərpa prosesi aparılır, 33 il əvvəl qan gölünə çevrilən o diyar bu gün Qarabağın ən gözəl, ən müasir yaşayış məskənlərindən biri kimi dirçəlməkdədir. Bu mənada, biz xoşbəxt xalqıq ki, Heydər Əliyev siyasi kursunun, cənab İlham Əliyev şəxsiyyətinin sayəsində ədalətin bərqərar olunmasına özümüz şahidlik edə bilirik".

Vilayət Muxtar

Biz artıq Xocalıya Böyük Qayıdışa şahidlik edirik